

Giya
PAÇXATAŞVİLİ

### Ürək

Ürəkdə sancı varsa,
Demək hələ yaşayır.
Olum-ölüm arası
Həyatını daşıyır.

...Gecə rahat uyuyun,
Səhər sağlam ayılın...
Qoy ürəyi partlasın
Qaramat Əzrayılın.

Tanrya bəlli nə vaxt
Düşəcək ləçək, papaq...
O vaxt isti cismini
Udacaq soyuq torpaq.

Zövq alın həyatdan,
yaxşılıq edin,
Ətrafa xoş ovqat
yayılsın gərək...
Mərdsayaq adamtək
dünyadan gedin...
O zaman
xəcalət çəkməsin ürək.

**12.04.2024**

### Rəssam

Gərgin zəhmət, istedad,
Həvəskar, sonra ustad,
Ləkələnməyən bir ad -
Rəssam...

Kağız, karandaş, lələk,
Çiyni xeyirxah mələk,
Əsla bilməyən kələk -
Rəssam...

Qoxusu spirtlə boya,
Həyatı dadlı röya.
İşləyir doya-doya
Rəssam...

Zamandan xəbərsizdir,
Tərifə çox xəsisdir,
Qəlbi sonsuz dənizdir -
Rəssam...

Çəkdiyi peyzaj, portret,
Dərindir məzmun, süjet,
Yayılan yer internet -
Rəssam...

Əsərləri - mirasdır,
Mindiyi at - Parnastr.
Gözəllikdir, Xilasdır -
Rəssam...

**11.04.2024**

### Var...

Maşın keçməz yolları var,
İşsiz fəhlə qolları var,
AVRO-su var, DOLLAR-ı var
Milyonlar səltənətində.

Pensiyasız əlillər var,
Əlilliyə dəlillər var,
Çox ağıllı dəlilər var
Milyonlar səltənətində.

Çox təmirsiz məktəblər var,
Firma gətirən həblər var,
Xalqımdan kənar dəblər var
Milyonlar səltənətində.

Atişləməz oyunlar var,
İnsan cildli qoyunlar var,
Yeyən boynuyoğunlar var
Milyonlar səltənətində.

Bəlli olmayan bol ət var,
Mütiliyə sədaqət var,
Yaltaqlıq adlı qələt var
Milyonlar səltənətində.

Var, "kəbinli mətbuat" var,
Eşşəyi ötməyən at var,
Göz yaşardan zarafat var
Milyonlar səltənətində.

Mədhiyyələr yazanlar var,
Onlara tay Ozanlar var,
Şöhrətində azanlar var
Milyonlar səltənətində.

Yazılmayan nəsnələr var,
Həyasız bəhanələr var...
Eh nələr var... çox "nələr" var
Milyonlar səltənətində.

**06.04.2024**

### Yenə...

Bakıda Dəli külək
Zülm edir adamlara.
Hamını distaq edib
Binalara, damlara.

O şahə qaldırıbdı
Xəzərdə dalğaları.
Səmalardan qovubdu
Deyingən qarğaları...

Sonra qəddarcasına
Ağacları yıxıbdı.
Qorxudan küçələrin
Siması sınıxıbdı...

Yağış dolu buludlar
Quş sayağı uçurlar.
Günəşli günlərinin
Xəyalını qucurlar...

Yenə dəli küləyin
Uşaqlığı tutubdu.
O yazın gəlişini
Nədənsə unudubdu...

Günəşi azdırammaz
Təbiətin kələyi.
O isti şüalarla
Ram edəcək küləyi...

**04.04.2024.**

### Böyüklər...

Putler, "İŞİD"lə "HƏMAS",
Ölümlə qanlı təmas...
"Sülhlə xoşbəxtlik - olmaz" -
Deyir böyüklər.

Səmalar dəlik-dəlik,
Aclıq, ağır xəstəlik...
Çoxlu pullar üstəlik
Yeyir Böyüklər.

Dərdimiz - qatar- qatar,
Get, gözəl ömür axtar...
Hər gün ən dəbli paltar
Geyir Böyüklər.

Baş versə əgər xəta,
Arıqlasa "Kök çanta",
Bax, Əzrayılı hətta
Söyər Böyüklər...
Döyər Böyüklər...

**01.04.2024**